## 10 Mart—Milli Teatr Günüdür

# Teatr cəmiyyətin düşüncə tərzidir

Azərbaycanda milli teatrın yaranmasından 142 il keçir. 1873-cü ilin mart ayının 10-da Bakıda Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" komediyasının səhnəyə qoyulması ilə Azərbaycan peşəkar milli teatrının əsası qoyulmuşdur.

Lakin Azərbaycanda teatr sənətinin tarixinə nəzər saldıqda onun elementlərinin köklərinin çox-şox əvvəllərə gedib çatdığı aydın olur. Qobustan, Gəmiqaya rəsmlərində təsvir olunan mərasim oyunlarına əsaslanaraq əminliklə qeyd etmək olar ki, Azərbaycan ərazisində teatr ənənələri daha qədimdir. Xalqımızın yaratdığı mərasim oyunları, xalq komediyaları, meydan və qaravəlli tamaşaları, eləcə də digər bayram məzhəkələri teatr sənətimizin ilk nümunələri kimi çox maraqlıdır. Sələflərimizin yaradıcı təfəkkürünü əks etdirən folklorumuzun zənginliyini ortaya qoyan bu tamaşalar peşəkar milli teatrın yaranmasında əhəmiyyətli rol oynamışdır.

XIX əsrdə Azərbaycan milli teatrının yaradılmasında da o dövrün qabaqcıl maarifçiləri Həsən bəy Zərdabinin, Nəcəf bəy Vəzirovun və Əsgərağa Adıgözəlovun xüsusi xidmətləri olmuşdur. Yaxın Şərqdə ilk dəfə olaraq Bakıda yaranmış peşəkar teatrımız xalqımızın milli dəyərlərinin qorunması, təbliği, estetik zövqünün formalaşması sahəsində müstəsna əhəmiyyət kəsb etmiş, mütərəqqi ideyaların yayılması üçün işıqlı amalların carçısına çevrilmişdi. Azərbaycan teatrının inkişafı, teatrlarımızın yaradıcılıq axtarışının genişləndirilməsi ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. "Teatrımızın böyük tarixi, böyük ənənələri, gözəl nümunələri var. Milli teatr bu gün də, gələcəkdə də yaşayacaqdır"—deyən ulu öndərimizin ölkəyə rəhbərlik etdiyi illərdə milli teatrımız əsl inkişaf və intibaha qovuşmuş, maddi-texniki bazası gücləndirilmiş, peşəkar aktyor və rejissor kadrları yetişdirilmişdir. Əgər 1969-cu ilə qədər ölkə¬mizdə cəmi 12 peşəkar teatr fəaliyyət göstərirdisə, hazırda Azərbaycanda 30-a yaxın peşəkar, 50-dən artıq xalq teatrı vardır. Müstəqillik illərində Azərbaycan teatrlarına diqqət və qayğı daha da artırılmış, aktyor və rejissorların səmərəli fəaliyyəti üçün hərtərəfli şərait yaradılmış, teatrların beynəlxalq əlaqələri genişləndirilmişdir.



Bu gün ölkə Prezidenti cənab İlham Əliyev də teatr sənətinin inkişafına xüsusi diqqət göstərir, bu sahədə səmərəli islahatlar həyata keçirir. Dövlət başçısının "Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında" 19 fevral 2007-ci il tarixli, "2009-2019-cu illərdə Azərbaycan teatrının inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 18 may 2009-cu il tarixli sərəncamları bunu bir daha təsdiq edir. Azərbaycan teatrının inkişaf perspektivlərini müəyyənləşdirən bu dövlət sənədləri milli-mədəni sərvətimizə çevrilən səhnə sənətimizin yaradıcılıq ənənələrinin qorunmasında, teatrların maddi-texniki bazalarının gücləndirilməsində mühüm əhəmiyyətə malikdir. XIX əsrin ikinci yarısından etibarən baş verən ictimai-siyasi hadisələr fonunda Azərbaycanın mədəni həyatındakı dəyişikliklər ənənəvi xalq teatrının peşəkar dünyəvi teatra çevrilməsinə zəmin hazırladı. O, yarandığı gündən Şərq-İslam aləminin ilk professional teatr sənəti ocağı kimi öz zəngin repertuarında daim yüksək ideyalı və dərin ictimai məzmunlu əsərlərə geniş yer verdi. Ölkəmizdə indi,bütünlüklə, milli dəyərlər sisteminə əsaslanan yeni teatr tipi və səhnə mədəniyyəti ilə seçilən aktyor məktəbi vardır. Əxlaqi-mənəvi keyfiyyətlərə yiyələnmiş vətənpərvər ruhlu yeni nəslin formalaşmasında bu teatrların xidmətləri əvəzsizdir.

Teatrlarımıza olan diqqət və qayğını rayonumuzda fəaliyyət göstərən xalq teatrının timsalında da aydın görmək mümkündür. Son illər Qəbələnin mədəni həyatında mühüm rol oynayan xalq teatrının maddi-texniki bazası möhkəmləndirilmiş, müasir tamaşa zalı, akustika və işıqlandırma sistemi ilə təmin olunmuşdur.

Azərbaycan SSR Nazirlər Sovetinin 25 iyul 1962-ci il tarixli qərarına əsasən Qəbələdə (əvvəlki Qutqaşın) yaradılan Cəlil Məmmədquluzadə adına Xalq Teatrı təşkil olunduğu gündən mütərəqqi ideyaların daşıyıcısı olmuş, insanların estetik tərbiyəsini formalaşdıran bədii sənət əsərlərini səhnəyə gətirməklə öz repertuarını zənginləşdirmişdir. Teatrda keçən il birbirinin ardınca Mirzə Fətəli Axundzadənin "Hekayəti Müsyö Jordan Həkimi-Nəbatat və Dərviş Məstəli Şah Cadükuni Məşhur", Süleyman Rüstəmin "Çimnaz xanım yuxudadır" komediyaları tamaşaya qoyulmuş, İsmayıl Bəy Qutqaşınlının "Rəşid bəy və Səadət xanım" hekayəsi səhnələşdirilmişdir. Premierası Milli Teatr Günü üçün nəzərdə tutulan Kamal Nemətin "Təzə xadimə" birpərdəli pyesinin hazırda yeni quruluşda proqon məşqləri keçirilir. Tamaşanın uğurlu alınması üçün yaradıcı heyət səylə çalışır.

Öz inkişafının yeni mərhələsinə qədəm qoyan çağdaş Azərbaycan teatrı mədəniyyət taiximizin parlaq səhifələrini şərəflə yazir və teatrsevərlər hər il mart ayının 10-nu Azərbaycan milli teatrının əsası qoyulan gün—Milli Teatr Günü kimi qeyd edirlər.

**ANAR RÜSTƏMLİ,**
**teatrşünas, kinodramaturq.**

# Novruz bayramında iş və istirahət günlərinin yeri dəyişdirilmişdir

Azərbaycan Respublikasının Nazirlər Kabineti iş və istirahət günlərinin ardıcıl olmasını təmin etmək məqsədi ilə 2015-ci ilin 29 mart istirahət günü ilə 27 mart iş gününün yerinin dəyişdirilməsi haqqında qərar qəbul edib.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AzərTAc-a bildiriblər ki, qərar Azərbaycan Respublikası Əmək Məcəlləsinin 105-ci maddəsinin 7-ci hissəsinə və "Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2006-cı il 8 dekabr tarixli 194-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 dekabr tarixli 489 nömrəli Fərmanının 2-ci hissəsinə əsasən qəbul edilib.

# Gecikmiş etiraf

Hələ qədim zamanlardan başlayaraq əsli nəcabəti məlum olmayan ermənilərlə qonşuluqda və ya birlikdə yaşamağa məhkum olmuş xalqlar bu mənfur toplumdan ancaq xəyanət və zərər görüblər. Yadelli qəsbkarlar, yerli zülmkarlar ermənilərin xəyanətinə arxalanaraq türk müsəlman xalqlarına, o cümlədən xalqımıza qarşı məkrli planlarını zaman-zaman həyata keçirə biliblər. Bunu sübut etmək üçün çox da uzaq olmayan XX əsrdə ermənilərin xalqımıza qarşı törətdikləri cinayətləri xatırlamaq kifayətdir. 1905—1907-ci illər, 1917—1920-ci illər, 1987-ci ildən başlayaraq bu günə qədər ermənilər xalqımızın başına olmazın müsibətlər gətirmişlər.

1988-ci ilin fevral ayının 27-də Sumqayıtda baş vermiş hadisələr erməni məkirliliyinin, erməni xəyanətinin yeni bir səhifəsidir.Bu hadisənin digər hadisələrindən fərqləndirici cəhəti ondan ibarətdir ki, erməni vəhşiləri azərbaycanlıları beynəlxalq aləmdə gözdən salmaq üçün soydaşlarını belə vəhşi zorakılığa məruz qoymaq, işgəncələrlə qətlə yetirmək və sair insanlığa sığmayan əməllər törətməkdən belə çəkinməmişlər.

Sumqayıt hadisələrinin tarixi bizdən uzaqlaşdıqca baş verən hadisələr, səbəbləri və məqsədi gözlərimiz önündə daha aşkar şəkildə canlanır. Hadisələrin mahiyyətini daha dərindən dərk edirik.

Aydındır ki, Sumqayıt hadisələrinin ssenarisi Sumqayıtdan çox uzaqlarda, okeanın o tayında və Moskvada hazırlanmışdı. Məqsəd aydın idi SSRİ-də xalqların birlikdə yaşamasının mümkünsüzlüyünü sübut etmək, bu yolla SSRİnin dağılmasını sürətləndirmək, ermənilərin Dağlıq Qarabağı Ermənistana birləşdirmək siyasətinə haqq qazandırmaq. SSRİ-nin tərkibində 50-dən yuxarı xalqın nümayəndəsi yaşasa da Sumqayıtda ermənilərdən istifadə edilməsi təsadüfi deyildi. Yuxarıda qeyd olunduğu kimi bu xalqın mayası xəyanətkarlıqla yoğrulmuşdur.

Sumqayıt hadisələri və nəticələri barədə çox yazılıb, ona görə də yazılanları təkrar etmək fikrim yoxdur. Erməni xalqı nə qədər məkrli və xəyanətkar olsa da bəzən onun da içərisində öz vəhşiliklərini etiraf edənlər tapılır.

Bu yaxınlarda kütləvi informasiya vasitələrində oxudum ki, İsveçdə yaşayan erməni siyasi xadimi və yazıçısı Vaqe Avetyan özünün «Faceebook» səhifəsində sensasiyalı fikirlərlə öz soydaşlarının iç üzünü açıb göstərib. Sumqayıt hadisələrinin ildönümü ərəfəsində o bildirib ki, o dövrdə yaşanan hadisələri azərbaycanlılar deyil, SSRİ xüsusi xidmətlərinin dəstəyi ilə ermənilər həyata keçirib.

Qeyd edək ki, 1988-ci ildə Sumqayıtda torədilmiş hadisələri rus və qərb mətbuatı bütünlüklə təhrif edir və bu hadisəni azərbaycanlıların törətdiyini iddia edirdilər. Onların təbliğat maşını bu sahədə nə qədər canfəşanlıq göstərsə də, yalanlara böhtanlara üstünlük versələr də əsil həqiqətlər üzə sıxdı. Hadislər təhlil olunarkən bəlli oldu ki, hadisədən xeyli əvvəl xaricdən Sumqayıta xeyli video kameralı mətbuat işçiləri gəlmiş, hadisə başlar başlamaz ancaq ermənilərə qarşı zorakılıq olan yerləri lentə çəkmişlər. Bundan başqa Sumqayıta fevralın 24 və 25-də əynində qara gödəkçələr olan saqqalı 100-əqədər idmançı görkəmli adamlar gəlmiş «Sumqayıt» və «Dalğa» mehmanxanalarında yerləşmişlər. Məhz həmin adamlar Sumqayıt hadisələrinin əsas hərəkətverici qüvvəsi olmuşlar. Sərhədləri çox ciddi şəkildə qorunan SSRİ kimi bir dövlətin yuxarı orqanlarının xəbəri olmadan bu adamların sərhəddi keçməsi Sumqayıta qədər gəlib çıxması mümkün deyildi.

Bu gün ermənilərin öz əlləri özlərini fəlakət girdabına sürüklədiklərini soyuq başla dərk edən çox az saylı Vaqe Avetya kimiləri bu xalqın böyük güclərin əlində alət olduğunu və bu alətin artıq işə yaramayıb tullandığını dərk və etiraf edirlər. Ancaq gec deyilmi?

**Qüdrət SƏMƏDOV.**

# Generalın ev muzeyində

Bu günlərdə rayonumuzun yazarlarından bir qrupu həmyerlimiz, realist yazıçı, Azərbaycan hekayə janrının əsasını qoyanlardan biri olan (əslində birincisi «Rəşid bəy və Səadət xanım hekayəsi ilə), «Miskin» təxəllüsü ilə gözəl şeirlər yazan şair, «Səfərnamə» əsərini» yazan coğrafiyaçı, general-mayor səyyah Hacı İsmayıl bəy Qutqaşınlının xatirə gününü qeyd etmək üçün ədibin ev muzeyində olmuşlar. Yazarlardan Əməkdar müəllim Fərman Əzizli, Cəlil Komradlı, Mirhəsən Ağayev, Azərbaycan Yazıçılar və Azərbaycan Jurnalistlər Birliklərinin üzvü Emin Baratoğlu, Şahid Quliyev, Əhməd Məmmədli, Azərbaycan Jurnalistlər Birliyinin üzvü Eldar Quliyev, əvvəlcə həmyerlimizin məzarını ziyarət etmiş, sonra onun ev muzeyinə yollanmışlar. Muzeyin direktoru Çimnaz Müzəffərova, qonaqları salamlamış, sonra bələdçi Nurlanə Veysəlova İ. Qutqaşınlının həyat yollarından söhbət açmış, yazarları maraqlandıran suallara ətraflı cavab vermişdir. Şairlərdən Əhməd Məmmədli və Emin Baratoğlu generala həsr etdikləri şeirləri oxumuşlar.

**«Qəbələ».**